# DƏYƏRLƏR MİLLİ MARAQLAR KONTEKSTİNDƏ: FƏRD, CƏMİYYƏT VƏ DÖVLƏT

***Rəfi QURBANOV,***
*Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini*

***AÇAR SÖZLƏR:*** *milli maraq, universal dəyər, milli dəyər, milli azlıq, ədalət.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *национальные интересы, универсальные ценности, национальные ценности, национальное меньшинство, справедливость.*
***KEY WORDS:*** *national interest, universal values, national values, national minority, justice.*

Milli marağı siyasət, dəyərləri isə tarixi inkişaf (müstəqillik, coğrafi məkan, iqlim, təbii ehtiyatlar və s.) formalaşdırır. Qərb mütəfəkkirləri bəzən milli maraq anlayışının dini ideologiyadan qidalandığını iddia edirlər. Dolayısı ilə dəyərlərin fərdlərin inancından doğduğunu deməyə çalışırlar. Belə ki, kilsələrin dövlət idarəetməsində mühüm yerə malik olduğu dövrlərdə insanların şəxsi maraqları dini ritualların təlqin etdiyi şəkildə inkişaf və təzahür edirdi. Məsələn, Cəhənnəmə düşməmək qorxusu. Milli marağın təlqin olunmasında günah işlətməmək vasitə kimi irəli sürülür və atılan hər bir addımda həmin vasitə gözlənilirdi. Məsələn, teokratik idarəetmə sistemində dominant dinin daşıyıcısı olmaq, onu təbliğ etmək və qorumaq əsas prinsiplərdən idi. Bir çox halda dominant dinə sitayiş etməyənlər sıxışdırılır, bəzi hallarda ən böyük günah sahibi kimi təqdim olunurdu [1]. Dünyəvilik (sekulyarizm) ideologiyası siyasi idarəetmə sistemində özünə nüfuz qazandıqdan sonra milli marağın fundamental konsepsiyası dəyişdi. Belə ki, artıq milli maraq plüralizmi, yəni dominantlıq anlayışının əsasında inanc, irq və cinsdən daha çox insan amilinin dayandığını diktə etməyə başladı. Belə olan halda bir insan eyni zamanda müxtəlif sosial kimliyə malik ola bilərdi. Məsələn, azərbaycanlı olmalqla yanaşı, müsəlman, xristian, yəhudi ola bilər və ya hər hansı dinin mənsubu olmaya bilərsən, həmçinin, bu mənada etnik mənsubiyyətin vətəndaşlıq kimliyindən sonra gəlir. Aparılan araşdırmalar göstərir ki, dəyərlərin qorunması və inkişafı üçün iki əsas faktor var: müstəqillik və təhlükəsizlik. Yəni müstəqillik və təhlükəsizlik *(eyni zamanda, özünəməxsus mədəniyyəti yaşatmaq, kimliyini qorumaq, etiqadını sərbəst yaşamaq və s. nəzərdə tutulur)* təmin edilmədikcə dəyərlər yad təsirlərə məruz qalır, aşınma prosesi başlayır və həmin dəyərlər tədricən yox olur. Nümunə kimi Çin Xalq Respublikasının (ÇXR) qərbində yerləşən Sincanda yaşayan uyğurlara, dolayısı ilə türklərə qarşı törədilən mədəni terroru göstərə bilərik. Aparılan araşdırmalar sübut edir ki, müsəlman uyğurlar qoyduqları türk adlarından məcburi şəkildə imtina etdirilir, dini etiqadlarına görə təqib olunur, məscidlər dağıdılır, dini əşyalar müsadirə edilir, namaz qılanlar bir çox halda

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

həbs olunur və ənənəvi bayramların keçirilməsinə qadağalar qoyulur. Eyni zamanda, uyğurlara milli geyimlərdən istifadəyə icazə verilmir, hətta onlar yaşadıqları ərazini tərk etmək, dostlarına və qohumlarına baş çəkmək üçün gedəcəkləri marşrut, görüşəcəkləri adamlar, getdikləri ünvanlarda qalacaqları günlərin sayı barədə yerli polis idarəsinə əvvəlcədən məlumat verirlər. Müvafiq hüquq mühafizə orqanı icazə sənədi təqdim etdikdən sonra yaşadıqları ərazini tərk edə bilirlər [2].

Siyasi ritorika daha çox xarici siyasətlə bağlı olsa da, bu gün milli maraq anlayışı daxili siyasi gündəliyin əsas özəyini təşkil edir. Bunun isə sadə izahı var. Çünki xalqın və dövlətin maraqları təkcə xaricdən deyil, eyni zamanda daxildən hər zaman təhlükə altındadır. Bu yanaşma isə özlüyündə həmrəyliyin vacibliyini önə çıxarır. Yəni ümumi rifaha çatmaq üçün birləşməyi, ümummilli dəyərləri qorumağı və inkişaf etdirməyi təlqin edir. Bu məqamda bəzi anlayışlara aydınlıq gətirmək lazımdır.

***Dəyər nədir?*** Dəyər inandığımız, onun üçün yaşadığımız və ömrümüzün sonunadək özümüzlə daşıdığımız mənəvi qida və maddi nəsnədir.

***Dəyərləri qorumaq niyə vacibdir?*** Dəyərlər fərdlərin bir-birinə münasibətində seçiminə, eləcə də seçimlərin mühakimə edilməsinə bələdçilik edən əsas vasitədir. Eyni zamanda, başqalarına qarşı davranışımıza və hisslərimizə təsir edir.

***Hansı amillər dəyərlərin formalaşmasında mühüm rol oynayır?*** Ailə, məktəb, cəmiyyət, ibadət yerləri, mədəni irs, iş yeri, siyasi görüşlər və kütləvi informasiya vasitələri dəyərlərin formalaşmasında mühüm rol oynayır.

Dəyərlər özlüyündə iki hissəyə bölünür: universal və milli dəyərlər. Səmimiyyət, hörmət, ədalət, bərabərlik, çalışqanlıq, həmrəylik, məsuliyyət, intizam və s. universal dəyərlər hesab olunur [3]. Milli dəyərlərə isə xalqın adət-ənənəsi, dil, din, atributlar, qəhrəmanlıq, musiqi, vərdişlər, incəsənət, teatr, ailə, milli mətbəx və s. daxildir. Əgər qeyd edilənləri ümumiləşdirsək, dəyərlər mədəniyyətə məna qazandıran meyardır.

Bu dəyərlərin təşviqi, həmçinin nəsillər arasında dəyərlərə loyallığın davamlılığını təmin etmək məqsədilə həm fərd və cəmiyyət, həm də dövlət tərəfindən gözlənilməli olan beş əsas meyara diqqət yetirək. Bunlar aşağıdakılardır [3].

1. **Ardıcıllıq** (consistency): fərdin cəmiyyət, cəmiyyətin dövlət, dövlətin həm fərd və cəmiyyət qarşısında fikir, söz və hərəkətlərinin üst-üstə düşməsi, ümumi rifah üçün müəyyən və dəyişməz olaraq qalması nəzərdə tutulur;
2. **Dözümlülük** (tolerantlıq): bu isə bir fərdin və ya cəmiyyətin malik olduğu keyfiyyətdir. Bu keyfiyyət bizə imkan verir ki, fərqli düşünən, fərqli geyinən və davranan insanlarla eyni çətir altında yaşayaq və eyni yerdə işləyək - hətta onların həyat tərzlərini bəyənməsək belə;
3. **Ədalət:** başqasına qarşı dürüst davranmaq, mövcud resursların hamının bərabər olacağı şəkildə bölünməsi, qərəssizlik və s. kimi meyarlara ciddi əməl edilməsidir;
4. **Səmimiyyət:** mənəvi dəyərlərə və prinsiplərə qarşı dəyişməz mövqe göstərmək sözügedən anlayışın açıqlaması kimi çıxış edə bilər. Burada əsas məqam ondan ibarətdir

ki, istər fərdlər arasında münasibət, istər fərdlə cəmiyyət arasında münasibət, istərsə də cəmiyyətlə dövlət arasında münasibət açıq dialoqa əsaslanmalıdır;

5. **Etimad və ya inam:** qarşılıqlı münasibətdə gözlənilən nəticə və ya hərəkət.

Qeyd olunan meyarlara nəzər saldıqda məlum olur ki, fərd üzərində formalaşmağa başlayan dəyərlər cəmiyyət tərəfindən inkişaf etdirilir və dövlət tərəfində qorunur, yəni dövlətin ali məqsədinə çevrilir. Buna misal kimi Azərbaycan Respublikasının Konstitusiyasının *ailə, uşaq və dövlət, dövlət dili, mədəniyyət hüququ, şərəf və ləyaqətin müdafiəsi hüququ* kimi müddəaları özündə əks etdirən müvafiq maddələrini göstərmək mümkündür [4]. Həmin müddəaların mətnlərinə baxdıqda məlum olur ki, əslində, onlar dəyərlər sistemini xarakterizə edən prinsiplərin qorunmasına, eləcə də xalqın daxili və xarici təhdidlərə qarşı immunitetinin gücləndirilməsinə, yəni fikir və ifadə plüralizmini bir amal uğrunda birləşdirməyə xidmət edir [5]. Belə olan halda xaricdən gözlənilən təhlükə multikultural qrupun birgəyaşayış ənənəsini, loyallığını gücləndirir, həmçinin şəxsi marağı ümummilli marağa çevirir. Yəni sosial struktur baxımından hər hansı şəxs etnik baxımından bir mədəniyyətə, dini inanc baxımından fərqli əqidəyə, vəzifə və ya peşə baxımından fərqli peşəyə və s. mənsub və ya sahib ola bilər. Ancaq milli maraqlar diktə edir ki, müxtəlif mədəni və sosioloji elementləri özündə ehtiva edən fərdin cəmiyyətə bir bütün kimi inteqrasiyası üçün ümummilli dəyərə sahib olması labüddür [5].

Azərbaycan nümunəsinə nəzər salaq. Belə ki, ölkənin etnik və mədəni xəritəsinə baxdıqda fərqli dinlərə (müsəlman, xristian, yəhudi və s.) mənsub insanların, o cümlədən müxtəlif xalqların (türk, avar, udin, ləzgi, talış, kürd, tat, saxur və s.) nümayəndələrinin bir çətir altında dinc birgəyaşayışın yüksək səviyyədə inkişafına şahid oluruq [6]. Bəs bunun səbəbi nədir? Bu sahədə onlarla səbəb göstərmək mümkündür. Bunlardan biri etnik amildir. Xalqımızın mütləq əksəriyyətini təşkil edən türklərdə kimlik iyerarxiyasının əsas mərtəbələrindən biri onların əxlaq anlayışıdır. "İgidlik, qoçaqlıq, mərdlik və comərdlik kimi əxlaqi xüsusiyyətlərə böyük önəm verən türklər xəyanəti, yalançılığı bağışlamaz, dürüst, xeyirxah və mərhəmətli insanı yüksək qiymətləndirərdilər. Onlara görə, bu əxlaqi keyfiyyətlərə malik insan hansı dinə və mədəniyyətə mənsub olmasına baxmayaraq, hörmətə layiqdir" [7, s. 99].

İqtisadi-siyasi amil də səbəblər arasındadır. Belə ki, tarixi İpək Yolunun üzərində yerləşən Azərbaycana təkcə ipək və müxtəlif məhsullar daşınmamış, eyni zamanda fərqli dinlər, mədəniyyətlər səyahət etmişdir. Nəticədə bu coğrafiyada yaşayanlar müxtəlif mədəniyyətlərlə tanış olmuş, hətta bir çox halda onların nümayəndələrinə sığınacaq vermişlər. Tarixi qaynaqlar təsdiqləyir ki, müxtəlif bölgələrdən tacirləri ölkəmizə cəlb edən əsas səbəblərdən biri buradakı mədəni və mənəvi mühit, onların heç bir ayrı-seçkiliyə məruz qalmadan rahat və təhlükəsiz şəkildə öz inanclarına uyğun yaşaması olmuşdur. Həmçinin Azərbaycanda əhali tərəfindən göstərilən hörmət və dözümlü münasibətin əyani sübutu kimi ticarətlə məşğul olan katoliklərin və atəşpərəstlərin inanclarına uyğun monastr və atəşgah tikmələrinə verilən dəstəyi göstərmək olar [7, s.104]. Digər səbəblərindən biri də vətəni, yaşadığı torpağı müdafiə vəzifəsidir. Azərbaycan tarix boyu təbii resurslarına görə münaqişələrin və müharibələrin yaşandığı bir məkan olub. Burada yaşayan əhali zaman-zaman terrora və soyqırımına məruz qalıb. Təsəvvür edin ki, Azərbaycan bir

əsrdə ermənilər tərəfindən dörd dəfə soyqırımına məruz qalıb. Erməni millətçiləri və terrorçuları tərəfindən 1905-07, 1918, 1948-53 və 1988-92-ci illərdə azərbaycanlılara qarşı soyqırımı törədilib [8]. Azərbaycanlıları daim bir amal birləşdirib: vətəndaşı olduğu torpağı qorumaq. Buna nümunə kimi Azərbaycanın yəhudi Milli Qəhrəmanı Albert Aqarunovu göstərmək olar. O, 1992-ci ildə Şuşada döyüş bölgəsində olarkən televiziyaya müsahibəsində belə deyir [9]:

"***Müxbir:*** *Hansı millətin nümayəndəsisən?*

***Albert****: Yəhudi.*

***Müxbir****: Yəhudiləri Azərbaycan torpağını qorumağa nə məcbur edir?*

***Alber****: Ona görə mən bu torpaqda yaşayıram. Doğulmuşam burada, yaşıyıram burada. Ayrı heç nə məcbur etmir.*

***Müxbir****: Nə qədər burada qalmağı fikirləşirsən?*

***Albert****: Müharibənin axırına kimi".*

Müsahibədən də göründüyü kimi, ölkəmizdə mövcud olan multikulturalizm kimlik seçimidir. Daha dəqiq izah etsək, ölkəmizdə mədəni müxtəlifliyə münasibətdən doğan fərqliliyi qəbuletmə ümummilli dəyər olaraq formalaşmışdır. Nəticədə dəyərə çevrilən tolerantlığı, hörməti, loyallığı, qarşılıqlı anlaşmanı qorumaq Azərbaycan dövləti öz ümdə vəzifəsi hesab edir. Nümunə kimi Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında qeyd edilmiş "dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluğun və həmrəyliyin möhkəmləndirilməsi; Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialının inkişaf etdirilməsi", eləcə də milli və dini tolerantlıq mühitinin qorunmasına dair bəndlərini göstərmək olar [10].

Milli maraqdan doğan siyasət diktə etdi ki, cəmiyyətdən gələn sosial sifariş siyasi iradədə də öz əksini tapsın. Həmin siyasətin təzahürü kimi 2016-ci ili Prezident İlham Əliyev tərəfindən "Multikulturalizm İli" və 2017-ci ili isə "İslam Həmrəyliyi İli" elan edilməsini, həmçinin ölkəmizdə fəaliyyət göstərən müsəlman və qeyri-müsəlman dini icmaların maddi texniki bazasının gücləndirilməsi, onların fəaliyyətlərinin dəstəklənməsi məqsədilə ölkə Prezidenti tərəfindən təkcə 2019-cu ildə ümumilikdə 3,2 milyon AZN məbləğində maliyyə yardımının ayrılmasını göstərmək olar [11]. Həmin məbləğ birdəfəlik yardım kimi verilmiş və onların fəaliyyətinin gücləndirilməsinə xidmət etmişdir.

Dövlət tərəfindən bu sahədə atılan mühüm addımlardan biri də institusional bazanın yaradılması olmuşdur. Belə ki, Prezident İlham Əliyevin 10 oktyabr 2017-ci il Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılmışdır. Fonda mənəvi dəyərlərin qorunması, araşdırılması və gənclər arasında geniş təbliği tapşırılmışdır [12]. Belə ki, Azərbaycan nümunəsində ümummilli dəyərlərin milli maraqlar kontekstində təzahürünün həm siyasi iradədə, həm normativ-hüquqi aktlarda, həm də idarəetmə sistemində görmək mümkündür. Dəyərlər fərdlərə görə dəyişməklə yanaşı, dəyərlərin təbliğində dövlət siyasəti də ölkələrə görə fərqlidir. Mövzunu daha müfəssəl izah etmək üçün fərqli ölkələrin bu sahədə apardığı siyasətin təhlilinə ehtiyac var.

Kanadanın dəyərlərin qorunması və təbliğində özünəməxsus milli maraqları mövcuddur. Məlumdur ki, o, mədəni müxtəliflik siyasətinin uğurlu idarəçiliyi istiqamətində ilk siyasi sistem yaradan dövlətlərdən biridir. Daha sadə dillə desək, mövcud mədəni plüralizmi iqtisadi kapitala, siyasi dividentə çevirən ölkədir. Kanadada mədəni müxtəliflik gəlmələr, yəni miqrantlar hesabına formalaşıb [13]. Hər il bu ölkə tələbələr, müvəqqəti işçilər, qaçqınlar istisna olmaqla təxminən 250 min miqrant qəbul edir. Eyni zamanda, Şotlandiya, İrlandiya, Almaniya, İngiltərə və Çin miqrantların mənşə ölkələri hesab olunur. Dini baxımından da rəngarəng olan Kanadada xristianlarla yanaşı, müsəlman, yəhudi, buddist, hindus, siqh və s. yaşayır. Həmçinin ingilis və fransız dilləri dövlətin rəsmi dili elan edilib [13, s.362]. Mədəni mənzərəyə baxdıqda ölkədə həm etnik, həm dini, həm də linqvistik plüralizm mövcuddur. Deməli, bir kanadalı olmaqla yanaşı, xristiansan, müsəlmansan, yəhudisən, eyni zamanda fərqli etnik keçmişin var. Yəni kanadalı kimi müxtəlif dəyərlərə sahibsən. Bu kontekstdə sözügedən ölkənin milli marağında orada yaşayan müxtəlif mədəniyyətli insanların qarşılıqlı hörmət, anlayış və dialoq şəraitində yaşaması, eləcə də iqtisadiyyata töhfə verməsini təmin etmək dayanır.

Beləliklə, Kanada dövləti həmrəyliyin gücləndirilməsi, orada yaşayan insanlara bərabər imkanların yaradılması və ölkənin gələcək taleyinin birgə müəyyənləşdirilməsi məqsədilə mədəni müxtəlifliyin idarə edilməsi siyasətini seçdi.

Bu siyasət çərçivəsində hökumət aşağıdakı təşəbbüsləri irəli sürmüşdür [13, s.363]:

1. Kanadanı inkişaf etdirməyə, dəyərlərini paylaşmağa və ona töhfə verməyə hazır olan mədəni qruplara kömək etmək;
2. Kanada cəmiyyətində bütünlüklə iştirak etmək üçün bütün qrupların üzvlərinə mədəni baryerləri aşmaqda yardım göstərmək;
3. Milli vəhdəti təmin etmək üçün Kanadanın bütün mədəni qrupları arasında mədəni mübadiləni təşviq etmək;
4. İştirakçılığın təmin edilməsi məqsədilə Kanadanın rəsmi dillərindən birinin öyrənilməsində miqrantlara dəstək vermək.

Milli maraqlardan doğan bu siyasi addım mövcud müxtəlifliyi dividentə çevirmək, demokratik prinsipləri və vətəndaş iştirakçılığını təmin etmək məqsədi daşıyır. Oxucuya daha müfəssəl yol xəritəsini təqdim etmək məqsədilə ölkələr üzrə aparılan əsas analizin həm universal dəyərlər - ədalət, bərabərlik, hörmət, həm də milli dəyərlər - dil, din, irs və s. üzərindən aparılmasını xartılatmaqda fayda var. Sadalanan dəyərlər üzərindən yola çıxaraq daha bir ölkənin siyasi sistemini analiz etmək məqalənin sualını daha da geniş cavablandırmağa imkan verəcək.

Almaniya Federativ Respublikası birlik ölkələri içərisində həm iqtisadi, həm də mədəni cəhətdən ən zəngin ölkədir. Burada milli azlıqlarla yanaşı, miqrantlar da ölkənin mədəni mənzərəsinin zənginləşdirilməsində iştirak edir. Almaniyanın timsalında dəyərlərin milli maraqlar kontekstində təzahürü formalarına nəzər salsaq, görərik ki, ədalət, bərabərlik, eləcə də dözümlülüyün qorunması və möhkəmləndirilməsini dövlət siyasətinin ana xəttini təşkil edir. Yəni müxtəlif dildə danışan, müxtəlif dini inanca sahib olan, fərqli geyim tərzinə və görünüşə

sahib insanların bir arada dinc yanaşı yaşaması, birlikdə işləməsi, eləcə də iqtisadi inkişafa töhfə verməsi Almaniya siyasi gündəliyinin bütün dövrlərdə əsas xətti olmuşdur. Xüsusilə milli azlıqlarla bağlı məsələdə federal hökumət daha həssas davranmışdır. Belə ki, Daxili İşlər, İnşaat və İcma üzrə Federal Nazirlik milli azlıqları aşağıdakı təsnifata görə bölür:

- Onlar almandır;
- Özlərinə məxsus dil, mədəniyyət, tarix və fərdi kimlikləri var;
- Milli kimliklərini qorumaq arzusundadırlar;
- Əsrlər boyu Almaniyada məskunlaşmışlar;
- Ənənəvi olaraq məskunlaşdıqları ərazilərdə yaşayırlar.

Milli azlıqlarla bağlı göstərilən xüsusiyyətlərə nəzər saldıqda azlıqların almaniyalı kimi qəbul olunduğunu, ölkənin qurucuları kimi çıxış etdiyini görmək mümkündür [13, s.378-379]. Qeyd olunan hər üç ölkənin siyasi sistemini analiz etdikdə məlum olur ki, dəyərlər milli maraqları formalaşdırır, həmin maraqlar zaman və cəmiyyətdən gələn sosial sifarişlər kontekstində ölkə siyasətinə yön verir. Bu nöqteyi-nəzərdən Azərbaycan, Kanada və Almaniyada aparılan siyasətə baxdıqda məlum olur ki, milli maraqların təlqin etdiyi siyasətin əsasında məhz ölkənin təhlükəsizliyini, müstəqilliyini gücləndirən dəyərlərin qorunması və təbliği dayanır.

## Nəticə

Azərbaycan nümunəsində dəyərlərin dövlət səviyyəsində təbliği, qorunması daxili təhlükəsizliyi və müstəqilliyi möhkəmləndirməklə yanaşı, ölkənin beynəlxalq arenada müsbət imicinin gücləndirilməsinə xidmət edir. Məhz atılan addımların nəticəsidir ki, bu gün ölkəmiz mədəniyyətlərarası dialoqun məkanı, humanitar məsələlərin müzakirə olunduğu platformaya çevrilib.

Bu gün Kanada haqqında da eyni fikirləri söyləmək mümkündür. "Mədəni mozaika" adlanan bu ölkədə aparılan ictimai rəy sorğularında iştirak edən respondentlərin 62 faizi hesab edir ki, mədəni müxtəliflik və plüralizm, əslində, inkişafa təkan verən əsas faktorlardan biridir [14]. Bir məqamı xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan və Almaniya tərəfindən bu sahədə həyata keçirilən siyasətdə bir sıra məqamlarda oxşarlıq müşahidə olunur. Məsələn, hər iki ölkə azsaylı xalqlarla bağlı oxşar siyasi görüşə sahibdir. Yəni onlar alman və ya azərbaycanlıdır, özlərinə məxsus mədəniyyəti qoruyub saxlamaq təminatı var, əsrlərdir sözügedən ölkədə yaşayır və yaradırlar. Kanadada isə bu siyasət, daha çox, miqrantlara yönəlib.

## ƏDƏBİYYAT


1. Gumiesky J. Self-interest, national interest and the political leader`s responsibility. UNLV. 1995. Bax: Dissertasiya araşdırması / https://digitalscholarship.unlv.edu/rtds/532/?utm_source=digitalscholarship.unlv.edu%2Frtds%2F532&utm_medium=PDF&utm_campaign=PDFCoverPages
2. Kiyono Ken. A Study on the Concept of The National Interest of Hans J. Morgenthau: as the standard of American Foreign Policy. 1969 / http://hdl.handle.net/10069/27783.

Accessed 10.19.2019.

3. Chidera V. National Value: Meaning, Importance, Factors, Sources and Manifestation of Values. 2019 / https://tipsinfluencer.com.ng/national-value-meaning-importancefactors-sources-and-manifestation-of-values/
4. Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq maddələri. 2019 / http://www.e-qanun.az/framework/897
5. Marilyn B. Brewer. The Psychology of Prejudice: Ingroup love or Outgroup Hate? Journal of Scoial Issue, 1999, Vol. 55, No.3, səh. 429-444.
6. Pashayev M. and Gurbanov A. Azerbaijai Multiculturalism. The Treasure of Ethnic Diversity. Baku: Published by "Sharg-Garb", 2019.
7. Gurbanov R. Armenian Terror: Religious and Historical Monuments of Azerbaijan. Baku: Published by "Tuna Printing and Publishing Company", 2018, səh. 57.
8. Youtube: Azərbaycanın milli qəhrəmanı. Müsahibə 1992-ci ildə götürülüb / https://www.youtube.com/watch?v=hwGvPRuuoE4
9. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 24 may, 2019-cu il / http://www.dqdk.gov.az/az/view/news/8853/azerbaycanda-dini-qurumlara-maliyye-yardimi-gosterilmesi-haqqinda-azerbaycan-respublikasi-prezidentinin-serencami
10. Mənəvi Dəyərlərin Təbliği Fondunun rəsmi internet saytı. 2019 / http://mdtf.az/nizamname.html.
11. Abdulla K. və başqaları. Multikulturalizmə giriş. Ali məktəblər üçün dərslik. Bakı: "Şərq-Qərb", 2019, səh. 296.
12. Griffit A. Building a mosaic: The Evaluation of Canada`s Approach to Immigrant Integration. 2017 / https://www.migrationpolicy.org/article/building-mosaic-evolution-canadas-approach-immigrant-integration
13. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası / http://www.e-qanun.az/framework/13373
14. Pew Research Center. Many who see increasing diversity think it`s a positive change. 2019 / <https://www.pewresearch.org/global/2019/04/22/how-people-around-the-world-view-diversity-in-their-countries/pg_2019-04-22_global-views-cultural-change_1-02/>
15. Human Rights Watch. Eradicating ideological viruses: China`s campaign of repression against Xinjiang`s Muslims. USA: 2018 / https://www.hrw.org/sites/default/files/report_pdf/china0918_web.pdf
16. İsmayılov G. Tolerantlıq: Bildiklərimiz və bilmədiklərimiz. Bakı: "Nurlar" nəşriyyat-poliqrafiya mərkəzi, 2014.

Рафи Гурбанов

## ЦЕННОСТИ В КОНТЕКСТЕ НАЦИОНАЛЬНЫХ ИНТЕРЕСОВ: ИНДИВИДУУМ, ОБЩЕСТВО И ГОСУДАРСТВО

### РЕЗЮМЕ

В статье отражены такие вопросы, как влияние ценностей на национальные интересы, проявление их на уровне индивидуума и общества, а также пропаганда ценностей – как основной приоритет государства. Основная цель этой статьи заключается в проведении сравнительного анализа вышеупомянутых вопросов и доведении до сведения читателей государственной политики, проводимой в этой области в различных странах. Основное внимание в данном исследовании уделено анализу универсальных и национальных ценностей, формирующих национальные интересы, а также мерам, предпринимаемым различными государствами в направлении широкой пропаганды ценностей в обществе и их защиты. С этой целью в статье приведен анализ политики, проводимой в Азербайджане, Канаде и Германии в сфере пропаганды ценностей.

Rafi Gurbanov

## VALUES IN THE CONTEXT OF NATIONAL INTERESTS: PERSON, SOCIETY AND STATE

### SUMMARY

The article addresses issues such as the impact of values on national interests, the expression of values at the level of the individual and society, and the promotion of values as the priority of the state. The main purpose of the article is to make a comparative analysis of the above-mentioned points, to bring to the readers' attention the state policy pursued in this field in different countries. The study focuses on the analysis of universal and national values that shape national interests, as well as on measures taken by various states to promote and protect values in society. To this end, the article provides an analysis of the values promotion policies in Azerbaijan, Canada and Germany.